H.N.ƏHMƏDOVA
e-mail: humay.ahmadova@bhos.edu.az

Bakı Ali Neft Məktəbi
(Bakı şəh., Xocalı pr., 30)

:10.62021/0026-0028.2024.2.009

MƏİŞƏTDƏ İŞLƏNƏN BİR SIRA FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN ETİMOLOGİYASI

Xülasə. *Bu məqalə ingilis və Azərbaycan dillərində gündəlik məişət leksikasında rast gəlinən frazeoloji birləşmələr haqqındadır. Bəzi frazeoloji birləşmələr milli yeməklərin adları, qablar, ölçü bildirən sözlər və s. kimi gündəlik həyatda işlənən sözlərinin köməyi ilə formalaşır. Bundan əlavə, məqalə frazeoloji birləşmələrin ətraflı etimologiyasından bəhs edir və təhlilini verir. Məqalə xüsusilə müxtəlif dövrlərdə istifadə olunan yeməklər, aksesuarlar, geyimlər ilə bağlı idiomlar kimi gündəlik istifadə olunan müxtəlif frazeoloji vahidlərə diqqət yetirir.*

Açar sözlər: *frazeoloji birləşmələr, omonim, çoxmənalılıq, məişət, lüğət tərkibi, etimologiya*

Hər bir xalqın gündəlik həyatı, tarixi ilə sıx bağlı, dildə hazır şəkildə mövcud olan frazeoloji birləşmələr dilin mühüm tərkib hissəsidir. Maddi və mənəvi mədəniyyəti dildə əks etdirən bu birləşmələr insan həyatının müxtəlif sahələrini əhatə edir və zəngin kaloritli lüğət tərkibinin yaranmasına səbəb olur. Bu mənada, müxtəlif növ frazeoloji birləşmələrin tədqiqi, onların etimologiyasının araşdırılması, müxtəlif leksik-semantik qrupların təhlili mühüm əhəmiyyət kəsb edir.

Linqvistik araşdırmalarda Azərbaycan dilinin məişətlə bağlı frazeologiyasının ayrı-ayrı bölmələrinə müraciət olunsa da, ingilis dilində məişət frazeologiyasına diqqət yetirilməmişdir. Onların sistemliliyi, tarixi təkamülü və formalaşması, dəyişmə dinamikası, linqvo-kulturoloji komponentlərin araşdırılması elmi əhəmiyyət kəsb edir. Dilin bəzi layları linqvo-mədəniyyətin milli özünəməxsusluğunu daha parlaq ifadə edir. Bu, hər şeydən əvvəl məişət frazeologiyasına da aiddir.

Dil də, mədəniyyət də həmişə bir-birilə qarşılıqlı əlaqədə olsa da, müstəqil sistemlərdir. Dil vahidlərində mədəni informasiyaları müəyyənləşdirmə hər iki sistemi əlaqənləndirərək və onların qarşılıqlı əlaqəsini təsvir etməyə imkan verən kateqoriyaların mövcudluğunu nəzərdə tutur.

Həm ingilis, həm Azərbaycan, həm də ingilis dillərində geniş şəkildə rast gəlinən bir qrup frazeoloji birləşmələr əhalinin məişəti ilə əlaqədar yaranır və insanların həyatında müxtəlif sahələri əhatə edir. Məişətdə işlənən frazeoloji birləşmələrin tematik qruplarına aşağıdakıları daxil etmək olar: mətbəxlə bağlı leksik vahidlər, geyim adları ilə bağlı frazeoloji birləşmələr, qida növlərinin adları ilə bağlı frazeologizmlər, həyətyanı sahədə işlənən məişət əşyaları ilə bağlı frazeoloji birləşmələr, məişətdə işlənən avadanlıqlarla bağlı frazeoloji birləşmələr.

Məişətdə işlənən sözlərlə bağlı yaranan frazeoloji birləşmələr Azərbaycan dilçiliyində, eləcə də ümumi dilçilikdə hələ də tədqiq olunmayan sahələrdəndir. Məişətdə işlənən leksik-semantik vahidlər sabitləşmiş və məcazi məna qazanmışdır.

Məişətdə işlənən frazeoloji birləşmələrin mühüm hissəsini təşkil edən mətbəxlə bağlı frazeoloji birləşmələr gündəlik həyatımızda tez-tez istifadə olunur. Məsələn, ingilis dilində mövcud olan “let the cat out of the bag” birləşməsi “sirri açmaq, paylaşmaq mənasını” ifadə edir. Frazeoloji birləşmə ilk dəfə olaraq 1700-ci ildə London qəzetlərində mühüm hadisə ilə bağlı sirrin açıqlanması zamanı işlədilmiş və dilin lüğət tərkibinə daxil olmuşdur. Qeyd etmək

lazımdır ki, bu birləşmə, yəni "let the cat out of the bag" birləşməsinin hərfi tərcüməsi "torbanı açıb pişiyi buraxmaq" mənasındadır. Məcazi mənada isə açıb ağartmaq, ağzında söz saxlamamaq kimi anlaşılır. Bu ifadə Azərbaycan dilinin lüğət tərkibində də mövcuddur. Bu birləşmə gündəlik həyatda tez-tez işlədilir və uzun müddət gizlin saxlanılan sirrin açıqlanması ilə bağlıdır. Digər ümumişlək səciyyə daşıyan mətbəxlə bağlı leksik vahid "to get the sack" –dir (işdən qovulmaq). Bu frazeoloji birləşmə biznes sahsində mütəmadi olaraq neqativ mənada işlədilir və mənfi çalara malikdir. 1500-cü ildən etibarən ingilis dilinə daxil olan frazeoloji vahid ingilis tacirlərinin ticarət sahəsi ilə bağlı olaraq yaranmışdır. Bu dövrlərdə ingilis tacirləri öz lazımi əşyalarını torbada daşıyardılar. Hər hansı bir binada çalışmağa başlayan tacirlər öz torbalarının təhlükəsiz yerə və ya sahiblərinin otağına qoyar və günün sonunda torbalarını geri götürərdilər. Əgər günün sonunda ağa tacirin işindən məmnun olmazdısa, tacirin torbası geri verilər və işdən qovulardı.

Azərbaycan dilində də mətbəxlə bağlı frazeoloji birləşmələr geniş şəkildə öz əksini tapır. Məsələn, *balta vurmaq, balta ilə yonulmamış, balta görməmiş, baltanı daşa vurmaq, baltası daşa vurmaq, baltası kəsməmək* (O.Musayev). Verilən nümunələrdən aydın olur ki, mətbəx əşyası olan balta frazeoloji birləşmələrin yaranmasında xüsusi rol oynayır. "Balta vurmaq" və ya "yıxılana balta vurmaq" birləşmləri əsasən neqativ hallarda işlədilən, birinin əleyhinə iş görmək, çətin vəziyyətə düşən birisinə təzyiq göstərmək mənalarını ifadə edir. Balta ilə yonulmamış − qaba, kobud rəftarı ilə seçilən, təhsil səviyyəsi aşağı olan adamlar haqqında, balta görməmiş − heç bir dəyişikliyə məruz qalmamış, təbii halda qalmış, baltanı daşa vurmaq − işi uğursuz alınmaq, baltası kəsməmək − sözü keçməmək, sözü əhəmiyyətsiz olmaq mənasını ifadə edir.

Digər xüsusi əhəmiyyət kəsb edən məişət frazeologizmlərinin növlərindən biri də geyim adları ilə bağlı leksik-semantik vahidlərdir. İngilis və Azərbaycan dillərində məişət frazeologiyası xüsusilə yemək və geyim adları dilin ən qədim laylarındandır. Onlar yüzilliklər boyu, müxtəlifsistemli daşıyıcıların yaranmasından indiyədək formalaşmış və zənginləşmişdir. Bir qayda olaraq geyim və yeməyin adlandırılması hər bir xalqın məişət təsərrüfatını, iqlim xüsusiyyətlərini, milli adət-ənənələrini, mərasim müxtəlifliyi və s. əks etdirir. Məhz geyiminə görə, hər hansı bir xalq haqqında müəyyən təəssürat yaranır. Maddi mədəniyyətin başqa sferalarından asılı olaraq geyim adları özünəməxsus xüsusiyyətlərə malikdir. O nəinki xalqın mənəvi həyatını, tarixini, məişətini və estetik baxışlarının əks etdirir, həm də onda etnik və sosial fərqlər müşahidə olunur. Belə frazeoloji birləşmələr daha çox danışıqda istifadə olunur. Məsələn, tighten your belt − əli aşağı olmaq, maddi çətinlik çəkmək mənasında işlədilən frazeoloji birləşmə gundəlik ünsiyyət zamanı ingilis dilli xalqların leksikonunda rast gəlinir. Bu birləşmənin mənşəyi tarixi boyu iqtisadi böhran zamanı insanların pulsuzluqdan əziyyət çəkdiyi dövr ilə əlaqələndirilir. Böhran zamanı ərzaq qıtlığı nəticəsində insanlar xeyli arıqlamış və şalvarlarının düşməməsi üçün bərk-bərk sıxardılar. Bundan başqa, bu birləşmə qısa müddətli iqtisadi problemlərdən müvəqqəti çıxış yolu mənasında da işlədilir.

Qeyd olunan frazeoloji birləşmələrdən də aydın olur ki, geyim adları ilə bağlı olan frazeoloji vahidlər tarixin müxtəlif dövrlərindən keçərək bu və ya digər dərəcə də mənalarını qoruyub saxlamışlar. Həm Azərbaycan, həm ingilis dilində mövcud olan "cut your coat according to your cloth" (ayağını yorğanına görə uzatmaq) frazeoloji birləşməsindən aydın olur ki, hər iki dildə oxşar mənalı frazeoloji birləşmələr öz əksini tapır.

Ümumişlək səciyyə daşıyan geyimlə bağlı frazeoloji birləşmələrə ingilis dilində keep your skirt on (bir kəsə qəzəbini gizlətmək) və ya keep your pants on (qəzəbinə hakim olmaq), to talk through your hat (bilmədiyi mövzu haqqında özünü məlumatlı göstərmək), Azərbaycan dilində isə don biçmək (tənbeh etmək), donunu dəyişdirmək (məqsədinə çatmaq), ətəyi buraxmaq (əl çəkmək), bir köynək ət tökmək nümunələrini misal göstərmək olar.

Dilə xüsusi kalorit, zənginlik gətirən məişətlə bağlı frazeoloji birləşmələrin digər növü isə ev avadanlıqları ilə bağlı birləşmələrdir. Məişət həyatında işlədilən mebel, ev əşyaları

adları ilə bağlı bu birləşmələr məişət həyatının danışıq dilində zəngin şəkildə təzahürüdür. Məsələn, ingilis dilində "get up on the wrong side of the bed" günə pis əhvali-ruhiyyə ilə başlamaq mənasında işlədilir. Roma İmperiyası dövründə çarpayının sol tərəfindən durmaq uğursuzluq əlaməti kimi qəbul edilirdi. Həm Azərbaycan, həm də ingilis dilinin lüğət tərkibində mövcud olan "elektrik stulu" ABŞ-da ölüm cəzası alətinə verilən addır və eqzosentrik frazeologiyaya xas birləşmədir. Bu frazeologiyaya başqa bir misal olaraq "sandıq ədəbiyyatı" birləşməsini nümunə göstərmək olar. Bu birləşmə bu və ya başqa səbəbə görə çap edilə bilməyən yazılar mənasını verir. [1, s. 223]. Məişət leksikasına daxil olan belə sözlər dilin lüğət tərkibini və əsas lüğət fondunu təşkil edir. Zaman keçdikcə, xalqın mədəni səviyyəsi artdıqca, lüğət tərkibinə daxil olan bir çox birləşmələrdən hamı istifadə etməyə başlayır. Məsələn, yatağa sərmək-xəstə olmaq, yatağa düşməsinə səbəb olmaq, yorğan-döşəyə salmaq kimi leksik ifadələr dilin lüğət tərkibinin vacib hissələrindəndir. [1, s. 153].

Qida növlərinin adları ilə bağlı frazeologizmlər də həm Azərbaycan, həm ingilis dilində geniş şəkildə öz əksini tapır. Qeyd etmək lazımdır ki, digər məişət frazeologizmləri ilə müqayisədə qida növləri ilə bağlı leksik-semantik vahidlər dilin lüğət fondunun mühüm bir hissəsinin təşkil edir. Qida xalqın maddi mədəniyyətinin biri hissəsi kimi onun tarixini, adət-ənənələrini dərk etməkdə zəngin mənbədir. Dildə elə söz və ifadələr mövcuddur ki, onlar hamı tərəfindən işlədilir və dərk edilir. Məişət leksikasına daxil olan bir sıra qida adları müxtəlifsistemli dillərdə daha çox işlədilir. Məsələn, ingilis dilində istifadə olunan "couch potato" birləşməsi "tənbəl adam" mənasında işlədilir. Belə insanlar hətta taxtda oturub qəlyanaltı edir və televizora baxırlar. Digər frazeoloji birləşmə "a piece of cake" "çox asan" mənasını ifadə edir. Bu ifadə hər hansı bir materialın məzmunca çox bəsit, asan olduğunu bildirmək üçün istifadə edilir.

Milli xörək adları da məişət leksikasına daxildir. Kulinariya terminlərinin müxtəlif inkişaf yolları vardır. İnsan yarandığı vaxtdan yaşaması üçün əsas şərtdlər biri də onun qida təminatı ilə bağlıdır. Məsələn, Azərbaycan dilində milli xörək adı olan kabab Qasım bəy Zakir və Şah İsmayıl Xətainin qəzəlində müşahidə edilir.

Odlar salın fəraqət əhlin;
Yaxub cigətin kabab edən eşq! (Xətai)

Könül uyma biməfayə;
Axır səni xarab eylər,
Salıb eşqin atəşinə,
Cigərini kabab eylər. (Q.Zakir) [1, s. 6]

Verilən nümunələrdən aydın olur ki, kabab etmək frazeoloji birləşməsi kiməsə əzab vermək, yandırmaq, yaxmaq mənasını ifadə edir.

Azərbaycan milli kulinariyasının ən dadlı yeməklərindən hesab olunan əriştə, xingəl də həmçinin frazeoloji birləşmələrin tərkibində müşahidə edilir. Məsələn "əriştə doğramaq" "bir işi görmək üçün gizlin hazırlıq aparmaq" (Azərbaycan dilin izahlı lüğəti, II cild səh.286), Azərbaycan milli kulinariyasının ən mühüm yeməyi hesab olunun plov məcazi mənada işlənir və dilə ekspressivlik verir. Məsələn, xan ilə plov yemir ki, bığı yağa batar − çox məğrur, təkəbbürlü adam haqqında

Əşi xan ilə aş yemirəm, bığım yağa batar. U.Hacıbəyov [2, s. 299].

Ümumxalq dilinin sosial diferensialaşması ilə əlaqədar yaranan məişət frazeologiyasının araşdırılması öz aktuallığı ilə diqqəti cəlb edir. Dilin sosial diferensiallaşması onun leksik, semantik, üslubi və frazeoloji strukturu əsasında baş verir. Ona görə də onu dilin sosial variantlarından biri kimi qəbul etmək olar. Məişət frazeologiyası xalqın tarix boyu onun həyatında baş

verən realilərlə zənginləşir, realilərə ad vermək yolu ilə təkmilləşir. Deməli, məişət frazeologiyasının yaranması təkcə sosial faktlarla deyil, həm də tarixi faktorlarla da əlaqələndirilir.

Məişət frazeologiyası xalqın keçib getdiyi qədim tarixi də özündə ehtiva edir. Məişət frazeologiyası dilin aktiv frazeologiyasından fərqlənir, çünki nüvə frazeologiyası cəmiyyətin müxtəlif təbəqələrinin ünsiyyətin xidmət etdiyi halda, məişət frazeologiyası konkret təbəqənin ünsiyyətinə xidmət edir.

İşin elmi nəticəsi: Məqalədən aydın olur ki, frazeoloji birləşmələr hər iki dilin (Azərbaycan və ingilis dillərinin) və mədəniyyətin əhəmiyyətli bir hissəsini təşkil edir. Bu birləşmələr xalqın gündəlik həyatı, tarixi və mədəniyyətini əks etdirir. Məqalə frazeoloji birləşmələrin milli mədəniyyətin və dilin mühüm tərkib hissəsi olduğunu vurğulayaraq, bu sahənin milli özünəməxsusluğunu və mədəni irsini qoruyub saxlamağın vacibliyini qeyd edir. Bu, frazeologiyanın mədəni dəyərlər və milli identiklik baxımından öyrənilməsinə töhfə verir.

İşin elmi yeniliyi: Məqalə Azərbaycan və ingilis dillərində məişət frazeologiyasını müqayisəli şəkildə araşdırır. Bu yanaşma, iki fərqli dil və mədəniyyətin frazeologiya sahəsində oxşarlıqlarını və fərqlərini göstərməklə, dilçilərə yeni perspektivlər təqdim edir. Həmçinin məqalə frazeoloji birləşmələrin linqvo-kulturoloji komponentlərini araşdıraraq, onların tarixi, mədəni və sosial kontekstlərdə necə formalaşdığını və dəyişdiyini təhlil edir. Bu, frazeologiyanın mədəniyyətlərarası əlaqələr və mədəni xüsusiyyətlər baxımından öyrənilməsinə yeni bir yanaşma təqdim edir.

İşin tətbiqi əhəmiyyəti: Məqalədə təqdim olunan nəticələr frazeologiya sahəsində aparılan tədqiqatların praktik əhəmiyyətini artırır və bu sahədə gələcək tədqiqatlara yeni perspektivlər açır. Xüsusilə dilöyrənmə, tərcümə və mədəni araşdırmalar sahəsində istifadə oluna biləcək faydalı məlumatlar təqdim edir.

Ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti. IV cilddə. [II cild] – Bakı: Şəqr-Qərb, 2006.
2. Azərbaycan dilinin izahlı lüğəti, − Bakı, − 1983, 1987 (III-IV cild)
3. Əsgərov, H.A. Azərbaycan dilində maddi mədəniyyət leksikası / H.A.Əsgərov, − Bakı, − 2006.
4. Quliyev, H.A. Məişətimizdə adət və ənənələr / H.A.Quliyev, − Bakı, − 1976.
5. Mirzəyev, A. Bayramlar, mərasimlər, ənənələr / A.Mirzəyev, − Bakı, − 1989.
6. Мамедова, Б.Р. Названия одежды в азербайджанском языке / Б.Р.Мамедова, −Баку, АКД, − 1992.
7. Verdiyeva, Z. Azərbaycan dilinin semasiologiyası / Z.Verdiyeva, − Bakı, − 1978.
8. Dəmirçizadə, Ə. Azərbaycan dilinin üslubiyyatı / Ə.Dəmirçizadə, − Bakı, − 1980.
9. Əfəndiyeva, T. Azərbaycan dilinin leksik üslubiyyatı / T.Əfəndiyeva, − Bakı, − 1980
10. Xudiyev, A. Azərbaycan dilinin zənginləşmə yolları / A.Xudiyev, − Bakı, − 1987.
11. Hacıyev, T. Azərbaycan ədəbi dil tarixi [I-II hissə] / T.Hacıyev, − Bakı, − 1976, − 1987.
12. Musayev, O. English-Azerbaijani dictionary
13. Hacıyeva, Ə. English-Azerbaijani phraseological dictionary / Ə.Hacıyeva. − 2006.
14. Webster's 21st century Dictionary, Thomas Nelson Publishers, − 1992,

H.N.Ahmadova

Etymology of Phraseological Combinations Based on Daily Life Lexics in English and Azerbaijani

Summary

This article explores phraseological combinations based on daily life lexics in English and Azerbaijani languages. Some phraseological combinations are formed with the help of daily life words, such as the names of national meals, plates, metric words etc. Moreover, the article provided comprehensive etimology of phraseological combination giving analysis of Additionally, the article

particularly focuses on various types of phraseological units used on a daily basis such as idioms denoting meals, accessories, clothing with reference to its usage in different periods of history.

Key words: *phraseological combinations, homonymy, polysemy, daily life, lexics, etymology*

Х.Н.Ахмедова

Этимология фразеологических сочетаний, основанных на лексике английского и азербайджанского языков в повседневной жизни

Резюме

В этой статье рассматриваются фразеологические сочетания, основанные на лексике английского и азербайджанского языков в повседневной жизни. Статья предусматривает всеобъемлющий и подробный этимологический анализ фразеологических комбинаций, давая примеры, относящиеся к различным периодам истории. Кроме того, статья особенно фокусируется на различных типах фразеологических единиц, используемых на ежедневной основе, такие как идиомы, обозначающие питание, аксессуары, одежду со ссылкой на его использование в различных аспектах повседневной жизни.

Ключевые слова: *фразеологические единицы, полисемия, повседневная жизнь, лексика, этимология*

Rəyçi: dos. G.A.Məhərrəmova-Ağayeva

Redaksiyaya daxil olub: 15.05.2024